

# Postmüharibə dövründə şəhid ailələri və qazilərə dövlət qayğısı

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev banisi və qurucusu olduğu müasir, müstəqil Azərbaycan dövlətinin ərazi bütövlüyünün təmin olunacağına, torpaqlarımızın işğaldan azad ediləcəyinə, ölkəmizin dünyanın ən inkişaf etmiş, qüdrətli dövlətlərindən birinə çevriləcəyinə öz varlığı qədər inanırdı və həmişə xalqımızı bu yolda səfərbər olmağa çağırırdı. Ümummilli lider Heydər Əliyev böyük uzaqgörənliklə deyirdi: "Mən qələbəmizə inanıram. Qələbəni biz birlikdə təmin etməliyik. Bu nurlu günün yaxınlaşmasına, ordumuza hər kəs əlindən gələn köməkliyi göstərməlidir. Hər birimiz, sizinlə birlikdə mən də, Vətən yolunda, xalqımızın gələcəyi naminə özümüzü qurban verməyə hazır olmalıyıq".**

Ümummilli liderin bu fikirləri cənab İlham Əliyevin məqsədyönlü, inamlı, səfərbəredici fəaliyyəti nəticəsində həyata keçdi, torpaqlarımız işğaldan azad edildi, Azərbaycanın ərazi bütövlüyü təmin olundu və müqəddəs üçrəngli bayrağımız bu gün Vətən torpağının hər yerində dalğalanmaqdadır.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, bu haqq savaşımızda şanlı zəfər qazanan qüdrətli Azərbaycan Ordusunun hərbçilərinə, qazilərinə daim xüsusi diqqət və qayğı göstərir. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər bunun bariz nümunəsidir. Xüsusilə qeyd olunmalıdır ki, hazırda dünyada pandemiyanın davam etməsi və iqtisadi-maliyyə çətinliklərinin olmasına baxmayaraq Azərbaycanda bu işlər uğurla davam edir.

Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin 8 noyabr 2020-ci il tarixdə Şuşanın işğaldan azad olması müjdəsini Şəhidlər Xiyabanından xalqımıza çatdırması və müharibə bitəndən bir gün sonra – noyabrın 11-də möhtərəm Prezident İlham Əliyevin və hörmətli Birinci vitse–prezident Mehriban xanım Əliyevanın ilk olaraq hərbi hospitalda müalicə alan yaralı əsgərlərimizi ziyarət etmələri şəhidlərimizə və qazilərimizə dövlətimizin yüksək dəyər verməsinin ifadəsi idi.

Müharibə bitəndən sonra şəhid ailələrinin, müharibə əlillərinin və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çox böyük işlər görülmüşdür. Bu sahədə yeni perspektivlərin müəyyənləşməsi üzrə işlər davam edir. Bu məqsədlə postmüharibə dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 19 fərman, 40 sərəncam imzalanmış, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 16 qanun qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə 8 noyabr "Zəfər Günü" və 27 sentyabr "Anım Günü" təsis edilmişdir. Cənab Prezidentin digər bir fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək üçün "YAŞAT" Fondu yaradılmışdır.

Digər aktlarla "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı, "Zəfər" və "Qarabağ" ordenləri, "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və digər medallar təsis edilmişdir.

Döyüşlərdə iştirak etmiş minlərlə hərbçi müxtəlif orden, medal və fəxri adlarla təltif edilmişdir. Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 3 dekabr 2020-ci il tarixli sərəncamı ilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması nəzərdə tutulmuşdur.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidentinin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə "Qarabağ Dirçəliş Fondu" yaradılmışdır. Azərbaycan Respublikasının Prezidentinin 30 dekabr 2020-ci il tarixli fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslər, həmçinin şəhid ailəsi üçün nəzərdə tutulmuş Azərbaycan Respublikasının Prezidentinin təqaüdünün məbləği artırılaraq müvafiq formada 1800 (min səkkiz yüz) və 500 (beş yüz) manat məbləğində müəyyən edilmişdir. Eyni zamanda, müvafiq fərmanlarla Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə 2000 (iki min) manat məbləğində, müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikasının Prezidentinin aylıq təqaüdü müəyyən edilmişdir. Habelə müvafiq fərmanla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, şəhər, rayon və şəhər rayonu icra hakimiyyəti başçısı aparatının, icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin nümunəvi strukturu və ştat vahidlərinin sayına "Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş təşkili şöbəsi" bölməsi əlavə edilmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyev xalqa göstərdiyi qayğının davamı olaraq digər məsələlərlə yanaşı, 18 may 2021-ci ildə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə yönələn "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərman, bundan başqa şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkilinin icrasının təmin edilməsi məqsədilə digər fərman imzalamışdır.

Müharibədən sonra yaranmış yeni reallıqlarla uyğunlaşmaq üçün Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 2020-ci il tarixli fərmanı ilə 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyası yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sosial sahədə aparılan siyasət nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında, orta ixtisas təhsili müəssisələrinə və ali təhsil müəssisələrində ali təhsilin bakalavriat (tibb təhsili üzrə əsas təhsil) səviyyəsinə tələbə qəbulu ilə bağlı Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda iştirak etmək üçün Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi qiymətlərə uyğun olaraq, ümumi təhsil müəssisələrini bitirən Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları, şəhid ailəsinin üzvləri, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, məcburi köçkün statusu olan şəxslər, I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların Azərbaycan Respublikası vətəndaşlarının imtahanlarda iştirakı üçün tələb edilən məbləğin ödənilməsi Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi barədə sərəncamlar imzalamışdır.

2021-ci il avqustun 25-də Prezident İlham Əliyevin "Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" imzaladığı sərəncam bu prosesin ardıcıl xarakter aldığını göstərir və bu kateqoriyadan olan vətəndaşların mənzil problemlərinin həllində müstəsna rol oynayır.

Postmüharibə dövründə cənab Prezidentin fərman və sərəncamları, tapşırıqları əsasında aktiv və hərtərəfli sosial müdafiə tədbirləri geniş şəkildə həyata keçirilməkdədir.

Müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən biri də onların avtomobillə təmin olunmasıdır. İndiyədək 7200 müharibə əlili avtomobillə təmin olunmuşdur.

Cari ildə isə ümumilikdə, 160-dən çox avtomobilin verilməsi nəzərdə tutulmuşdur.

Bu günə qədər dövlət siyasəti olaraq şəhid ailələri, müharibə əlillərinin sosial müdafiəsi istiqamətində çox böyük işlər görülmüşdür. Onu demək kifayətdir ki, bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin edilmişdir. Təkcə keçən il 1572 mənzil verilmiş, bu il isə 3 minə yaxın mənzil veriləcəkdir və beləliklə, 2014-cü ilədək növbədə duran vətəndaşların problemi öz həllini tapacaqdır.

Müharibə dövründə öz əmlakını itirmiş insanlar üçün də yüzlərlə yeni ev tikilməkdədir.

Belə ki, 1997-2021-ci illərdə Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə əlil olmuş şəxslərin və şəhid ailələrinin üzvlərinə hər şəraiti olan tam təmirli 10 min 500 mənzil və fərdi evlər təqdim olunmuşdur. 2014-cü ildən mənzil növbəsinə dayanmış bu kateqoriyadan olan şəxslərin hamısına mənzil və fərdi yaşayış evi verilmişdir. Prezident İlham Əliyevin bu ilin yanvarında imzaladığı sərəncamla bu sahədə yeni proqramlar təsdiq edilmişdir. 2021-2025-ci illərdə şəhid ailələrinə 11 min mənzil və fərdi ev veriləcək.

Ölkədə davam edən uğurlu sosial siyasətin nəticəsi olaraq şəhid ailələrinin üzvləri və müharibə veteranlarının fəal məşğulluq tədbirləri çərçivəsində son 7 ayda 52 min nəfər işlə təmin olunmuş, 7 min 200 nəfər özünüməşğulluq proqramına, 56 min nəfər isə ictimai işlərə cəlb edilmişdir.

Bu ilin əvvəlindən indiyədək 26 min 200 nəfər reabilitasiya vasitəsilə təmin olunmuş, 2 min 600 nəfərə isə reabilitasiya xidmətləri göstərilmişdir. Bu qəbildən olan vətəndaşların orta aylıq əməkhaqqı 2018-2020-ci illərdə 30 faiz, orta aylıq pensiyası isə 60 faiz artmışdır. Postmüharibə dövründə 26 min nəfərə 36 min sosial, psixoloji və digər xidmətlər göstərilmişdir.

Məşğulluq və özünüməşğulluq məsələləri üzrə ümumi 2 min 303 nəfər şəhid ailə üzvləri, 4 min 578 nəfər müharibə iştirakçısının məşğulluğu təmin edilmişdir. Müharibədən sonra 9 mindən çox insana sosial ödənişlər verilmişdir. Belə ki, sosial tərəfdaşlar tərəfindən həssas qruplara 110 mindən çox ərzaq payı verilmiş, müvafiq qurum tərəfindən 2 min 874 (99%-i) şəhidin 7 min 545 ailə üzvünə 15 min 302 sosial ödənişlər verilmiş, bütün mülki şəhid ailələrinə təyinatlar yekunlaşdırılmışdır. Həmçinin 1526 müharibə əlilinə sosial ödənişlər təyin edilmiş, maddi-məişət şəraitinin və təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi aparılmış, 12 min 452 yaralı hərbçi ailəsi ziyarət edilmiş, 1200 nəfər Qarabağ müharibəsi əlilinə 8 min 830 reabilitasiya vasitəsi verilmiş, Protez Ortopedik Reabilitasiya Mərkəzində 140 hərbçi yüksək texnologiyalı müasir protezlə, 750 əlilliyi olan şəxs mühərrikli təkərli oturacaqla təmin edilmişdir. 2 min 951 ailə ilə görüş keçirilərək onlara psixoloji dəstək göstərilmiş, ödənişsiz dərman preparatları verilmiş, reabilitasiya müəssisələrində isə 1300 şəxsə sosial-psixoloji xidmətlər göstərilmişdir.

Keçmiş məcburi köçkünlər üçün inşa olunmuş 6 min 365 mənzilin şəhid ailələrinə verilməsi üçün işlər aparılır. 2021-ci ilin planı üzrə artıq 1 min 600 mənzil şəhid ailələri və müharibə əlillərinə verilmiş və bu il 3 min mənzil və fərdi ev verilməsi planlaşdırılır. Bundan başqa, müharibə əlillərinə 2021-ci ilin planı üzrə artıq 160 avtomobil verilmişdir. Ailə üzvlərindən əlilliyi olan 300-dən çox şəxsə birdəfəlik maddi yardım ayrılmışdır.

Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli fərmanı ilə yaradılmış Yaşat Fondu qısa müddət ərzində Qarabağ qazilərinin və şəhid ailələrinin məişət və sosial problemlərinin həlli istiqamətində olduqca geniş və faydalı işlər görmüşdür. Bu müddət ərzində Yaşat Fondu 8 min 971 nəfərin 11 min 178 müraciətini reallaşdırmış, onlardan 6 min 629 nəfərin mənzil şəraitinin yaxşılaşdırılması, 3 min 209 nəfərin müalicə bərpa, o cümlədən xarici ölkələrdə müalicəsi işinin təşkilini həyata keçirmiş, 1126 nəfərin kredit borclarının qaytarılmasına yardımçı olmuş, 117 nəfərin təhsili ilə bağlı maddi yardım göstərmişdir.

Şəhid ailələri və Qarabağ qazilərinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin həlli daim Azərbaycan dövlətinin və cəmiyyətin diqqət mərkəzində olacaqdır. Hər bir Azərbaycan vətəndaşı hesab edir ki, o qəhrəman insanlar həm də bizim hər birimizin əvəzinə döyüşmüşlər, qan tökmüşlər, şəhid olmuşlar.

Qazilərimizin və şəhidlərimizin qəhrəmanlıqlarını yüksək qiymətləndirən və həmişə onların yanında olacağını bəyan edən Prezident İlham Əliyev 11 noyabr 2020-ci il tarixdə hərbi hospitalda müalicə alan qazilərimizlə görüşdə demişdir: "İndi həyatımızda yeni dövr başlayır. Bu dövr ölkəmizin xoşbəxt gələcəyini təmin edəcək. Sizin həyatınızda yeni dövr başlayır. Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək. Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək. Siz əmin ola bilərsiniz. Sizin gələcək həyatınızla bağlı mən bəri başdan bütün dövlət qurumlarına, özəl şirkətlərə müraciət edirəm, bildirirəm ki, hərbçilərimizi, qəhrəmanlıq göstərmiş, yaralanmış hərbçilərimizi işlə təmin etmək üçün xüsusi addımlar atılacaqdır. Biz bunu daim nəzərə alacağıq. Şəhid ailələrinin problemləri öz həllini tapacaq".

Azərbaycan xalqı xoşbəxt xalqdır ki, cənab İlham Əliyev kimi güclü, iradəli, müdrik, Vətənini və millətini sevən xarizmatik bir lideri var. İlham Əliyev də xoşbəxt dövlət başçısıdır ki, müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin edə bilmişdir. Vətəninin hər bölgəsində dizini yerə qoyub öpdüyü üçrəngli bayrağı Vətən səmasının ucalığında dalğalandırmaq onun qüdrətli əllərinə nəsib olmuşdur. Doxsanıncı illərin əvvəllərində Naxçıvanda ümummilli liderlə görüşündən sonra Nikolay Baybakovun dediyi sözləri xatırlatmaq istərdim: "Mən Azərbaycanı Heydər Əliyev qədər sevən ikinci adam tanımıram".

Ulu öndərdən sonrakı ikinci adamı artıq bütün dünya tanıyır. Bu Heydər Əliyev yolunu Şuşa ucalığına qədər yüksəldən, Zəngəzur dəhlizinə qədər aparan, türk dünyasının bütövlüyünü bərpa edən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir!

***Musa QULİYEV,***
***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri***